**UOT 791.43/.45**

*DOI: 10.25045/ASUCAAI.2025.31*

# SÜNİ İNTELLEKTDƏN İSTİFADƏ TELESERİAL SSENARİSİNİN YAZILMASINDA YENİ MƏRHƏLƏ KİMİ

**Nabat Hüseynova Elşad qızı**
Doktorant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
nabathuseynova@gmail.com

**Xülasə**

Yaradıcılıq əsrlər boyu yalnız insanın təxəyyül və duyğularına əsaslanan bir fəaliyyət hesab edilirdi. Lakin tarixin müxtəlif inkişaf mərhələlərində meydana gələn texnoloji yeniliklər bu təsəvvürlərin tədricən dəyişməsinə səbəb olurdu. Bu gün süni intellekt artıq musiqi bəstələyir, şəkillər çəkir, ədəbi mətnlər yazır. Bu tendensiya televiziya sahəsinə də təsirsiz ötüşməyib – belə ki, süni intellektin teleserial ssenarilərinin yazılmasında istifadəsi yeni mərhələyə qədəm qoyduğumuza işarə edir.

Sözügedən yeniliyin təsirini daha yaxşı anlamaq üçün teleserial tarixinə nəzər salmaq kifayətdir – belə ki, bir vaxtlar gündəlik melodramlar olan teleseriallarin süjetləri zaman keçdikcə mürəkkəbləşdi. Sözsüz ki, bu dəyişiklik məhz yaradıcı heyətin zəhmətinin nəticəsi idi. Lakin bu gün eyni mürəkkəb süjetlər süni intellekt hesabına saniyələr içində yazıla bilər.

Bəs bu, ssenari sənayesində inqilabi irəliləyiş, yoxsa insan yaradıcılığına qarşı təhlükədirmi? Süni intellektdən istifadə ssenaristlərin işini asanlaşdırır, yoxsa onları əvəz edir? Bu məqalədə süni intellektin teleserial ssenarilərinin yazılışında rolunu, habelə onun müsbət və mənfi tərəflərini təhlil edəcəyik.

**Nabat Huseynova**

## Using Artificial Intelligence as a New Stage in TV Series Scriptwriting

**Abstract**

Creativity has long been considered an activity based solely on human imangination and emotions. However technological innovations emerging at various stages of historical development gradually led to a shift in these perceptions. Today, artificial intelligence (AI) composes music, creates art, and writes literary texts. This trend has also impacted television, as AI has begun to play a role in writing TV show scripts, marking a new phase in the industry.

To fully grasp this shift, it is helpful to examine the evolution of TV series over time. Once dominated by daily melodramas, the plots of TV series have become increasingly complex over time, thanks to the efforts of creative teams. Today these same intricate storylines can be written in seconds with the help of AI.

But does this represent a revolutionary advancement or a threat to human creativity? Does AI simplify the work of screenwriters, or does it replace them? This article will analyze the role of AI in writing TV show scripts, exploring both is advantages and challenges.

**Набат Гусейнова**

# Использование искусственного интеллекта как новый этап в написании сценария для телесериалов

**Аннотация**

На протяжении столетий творчество считалось деятельностью, основанной исключительно на человеческом воображении и эмоциях. Однако технологические инновации, возникавшие на различных этапах исторического развития, постепенно приводило к изменению этих представлений. Сегодня искусственный интеллект уже сочиняет музыку, фотографирует и пишет литературные тексты. Эта тенденция затронула и телевизионную индустрию, поскольку использование искусственного интеллекта при написании сценариев телесериалов свидетельствует о том, что мы вступили в новую фазу.

Чтобы лучше понять влияние этого нововведения, достаточно обратиться к истории телесериалов — сюжеты сериалов, которые когда-то были ежедневными мелодрамами, со временем стали более сложными. Несомненно, это изменение стало результатом кропотливой работы творческой группы. Но сегодня те же самые сложные сюжеты можно написать за считанные секунды, используя искусственный интеллект.

Но является ли это революционным достижением в индустрии сценарного мастерства или угрозой творчеству человека? Облегчает ли использование искусственного интеллекта работу сценаристов или заменяет ее? В этой статье мы проанализируем роль искусственного интеллекта в написании сценариев сериалов, а также его положительные и отрицательные стороны.

**Açar sözlər:** süni intellekt, ssenari yaradıcılığı, teleserial, teleserial ssenarisi,texnologiya

**Key words:** artificial intelligence, screenwriting, TV series, TV series script, technology

**Ключевые слова:** искусственный интеллект, сценарное мастерство, сериал, сценарий сериала, технология

Teleserial ssenarilərinin yazılışı uzun müddət ərzində yalnız insan yaradıcılığına, onun təxəyyülünün gücünə əsaslanıb. Ssenaristlər ideyalar formalaşdırır, süjet qurur, personajlar yaradır, emosional təsir yaradan, tamaşaçıların qəlbinə toxunan hekayə qurur və təsirli dialoqlar yazırdılar. Lakin süni intellektin inkişafı və istifadəsinin geniş yayılması ilə ssenari yazılması prosesində yeni bir mərhələ başlayır.

Fable Studio dünyada ilk dəfə tamaşaçılara sadəcə bir neçə sözdən istifadə edərək öz teleseriallarının bölümlərini yaratmağa imkan verən striminq servis olan Showrunner-ın istifadəyə verildiyini elan etdi [Сидорова, Д.]. 2023-cü ildə South Park cizgi serialının yeni mövsümündə qismən ChatGPT vasitəsilə yazılmış bölüm yayımlanmışdı. Sözügedən bölümdə (26-cı mövsümün dördüncü bölümü) həmçinin süni intellekt tərəfindən yaradılmış səslər də yer almış, titrlərdə isə ChatGPT həmmüəllif kimi göstərilmişdir [Future Crew].

Süni intellektin yaradıcı sahələrə inteqrasiya prosesi ilə bağlı son illərdə geniş tədqiqatlar aparılmışdır. Süni intellekt inkişaf etdikcə onun ssenari yazmaq qabiliyyəti də nəzərəçarpacaq dərəcədə təkmilləşmişdir. Bu inkişaf ssenaristlər üçün həm yeni imkanlar, həm də problemlər yaradır.

Bəzi tədqiqatçılar süni intellektin yaradıcılığı artırdığını iddia etsələr də, digərləri onun insan yaradıcılığına təhlükə törətdiyini bildirirlər.

Teleseriallların yaradılması, məlum olduğu kimi, uzun və mürəkkəb prosesdir. Süjetin yazılması, dialoqların qurulması, hekayənin mükəmməlləşdirilməsi aylar, hətta illər tələb edə bilər. Xüsusilə televiziyanın vaxt məhdudiyyətləri nəzərə alındıqda, bu prosesin sürətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Generativ süni intellekt ssenarinin yazılması və hekayənin inkişafı kimi yaradıcı tapşırıqların yerinə yetirilməsinə kömək etməklə, film istehsalının pre-prodakşn mərhələsini sürətləndirir [Абирами, В.].

Süni intellekt böyük həcmdə məlumatı təhlil edərək süjetin əsas elementlərini müəyyənləşdirib növbəti bölümlər üçün süjet xətti təklif edə və personajların danışıq üslublarına uyğun dialoqlar generasiya yaza bilməklə yanaşı, ssenarinin dil və üslub baxımından təhlilini apararaq ssenaridə uyğunsuzluq və məntiqi xətaları aşkarlaya bilər. Həmçinin, süni intellekt bir səhnə və ya dialoqun fərqli versiyalarını təklif edə bilər [Абирами, В.]. Bu zaman ssenarist variantları müqayisə edərək ən uyğun olanı seçir.

Bundan əlavə, süni intellekt böyük həcmdə film və serial ssenarisini təhlil edərək tamaşaçıların hansı süjet xətlərinə daha çox maraq göstərdiyini müəyyən edə bilir. Bu isə, öz növbəsində, kommersiya baxımından uğurlu ssenarilər yaratmağa kömək edir. Alqoritmlər böyük həcmdə verilənləri təhlil edə, müəyyən illərdə hansı mövzuların populyar olduğunu, hansı süjetlərin tamaşaçıları cəlb etdiyini başa düşə və bunun əsasında orijinal ideyalar yarada bilər [5]. Bu isə süni intellektin seriallların kommersiya uğurunu artıran əsas faktorlardan biri kimi çıxış etməsi deməkdir.

Prodüser Y. Kononenko müsahibələrinin birində qeyd edir ki, süni intellektlə işləyən sistemlər artıq tamaşaçı seçimləri ilə bağlı böyük həcmdə məlumatı təhlil edə bilir və istehsalçılara hansı hekayələrin tələb olunacağını daha yaxşı anlamağa kömək edir [Альперина, С.]. O, həmçinin qeyd edir ki, Netflix və Amazon kimi striminq servisləri süni intellektin bu üstünlüyündən istifadə edərək hər bir abunəçi üçün tövsiyə siyahısını fərdiləşdirir və bununla da daha çox abunəçini özünə cəlb edir [Альперина, С.]. Çünki bu cür striminq servislərin əsas məqsədi tamaşaçı marağını saxlamaqdır. Serial başa çatan kimi oxşar məzmunlu serialın təklifi isə bu metodlardan sadəcə biridir.

Qeyd etmək lazımdır ki, süni intellektin istifadə etdiyi təhlil metodları tamaşaçıların hansı növ süjetlərə, mövzulara baxmaqlara üstünlük verdiklərini araşdırmaqla yanaşı, teleseriallların tamaşaçıda yaratdığı emosional təsiri də araşdırır. Bu cür yanaşma istehsalçılara və ssenaristlərə tamaşaçıların duyğusal ehtiyaclarını ödəməyə qadir teleseriallların istehsal etmələrinə yardımçı olur.

Sadalanan aspektlər süni intellektin teleserial ssenarisinin yazılışında istehsal prosesinin sürətləndirdiyini göstərsə də, bu texnologiyanın istifadəsi ilə bağlı etik suallar ortaya çıxır. Süni intellektin yaradıcı sahələrə daxil olması ilə bağlı ortaya çıxan etik suallardan biri insan yaradıcılığının dəyəri ilə bağlıdır. Ssenaristlər, digər yaradıcı peşə sahibləri kimi öz işlərinə məsuliyyətlə yanaşırlar – hər ssenari onların peşəkar təcrübəsi, xəyal gücü, şəxsi təcrübələri, habelə duyğusal zənginliyi əsasında işıq üzü görür. Onların əvəzinə ssenari süni intellekt tərəfindən yazıldıqda insan faktorunun arxa plana atılması riski meydana çıxır. Bu isə, öz növbəsində, bu sahədə çalışan insanların əmək haqqı, hüquqları, statusu və yaradıcılıq sahəsindəki rolu barədə suallar yaradır.

Ortaya çıxan digər məsələ intellektual mülkiyyət və müəlliflik haqlarıdır [Абирами, В.]. Süni intellekt vasitəsilə yaradılan ssenarilərin müəllifi kim hesab edilməlidir – süni intellekti proqramlaşdıran insanlar, ondan istifadə edən şəxs, yoxsa süni intellektin özü? Qeyd etdiyimiz kimi, süni intellekt mövcud materialları təhlil edərək verdiyimiz tapşırığı həll edir. Hal-hazırda bu sualın cavabı açıq olaraq qalır. Süni intellektin istifadə etdiyi məlumatların mənşəyi də etik məsələlərdən biridir. Qeyd etdiyimiz kimi, o, çox sayda ssenari, kitab, film və digər hazır materialları analiz edərək fəaliyyət göstərir, bəzən isə bu məlumatlar müəllifin icazəsi olmadan əldə edilə bilər. Bu isə intellektual mülkiyyət hüququnun pozulmasına və intellektual mülkiyyətdən qeyri-ədalətli istifadəyə yol aça bilər. Süni intellekt teleseriallarin tamaşaçıda yaratdığı emosional təsiri təhlil edə bilsə də, tənqidçilər süni intellekt məzmununun emosional dərinlik və incəlikdən məhrum olduğunu iddia edirlər [Сидорова, Д.]. Bundan başqa, süni intellekt mövcud nümunələrə əsaslanaraq işlədiyinə görə, onun yaratdığı ssenarilər çox vaxt şablon olur, belə ssenarilər insan təxəyyülünə xas incəliklərdən və orijinallıqdan məhrum olur. Üstəlik, süni intellektdən geniş istifadə insanların öz iş yerlərini itirmələri, insan əməyinin qismən və ya tamamilə avtomatlaşdırılmış sistemlərlə əvəz olunması ilə nəticələnə bilər. Süni intellektin teleserial ssenarilərinin yazılmasında istifadəsi televiziyanın və ümumiyyətlə yaradıcılığın gələcəyini formalaşdıran yeni mərhələyə qədəm qoyduğumuza işarə edir. Bu texnologiya həm istehsal prosesini sürətləndirmək, həm də kommersiya baxımından daha effektiv nəticələr əldə etmək imkanı verir. Lakin süni intellektin yaradıcı sahələrə inteqrasiyasıbir sıra sualların meydana çıxmasına səbəb olmuşdur. Gələcəkdə bu sualların cavablandırılması və bu texnologiyanın düzgün istifadəsinin təmzinlənməsi vacib məsələdir. Çünki süni intellektin tətbiqi yalnız texnologiyanın inkişafını deyil, həm də mədəniyyət və incəsənətin gələcəyini müəyyən edəcək və gələcəkdə incəsənət sahələrində yeni qayda və normaların tətbiq edilməsinə səbəb olacaq.

**Ədəbiyyat siyahısı:**

1. Абирами, В. Искусственный интеллект в кинематографе: Новые творческие возможности. https://www.ultralytics.com/ru/blog/artificial-intelligence-in-filmmaking-new-creative-possibilities
2. Альперина, С. Как применяют искусственный интеллект в фильмах и сериалах https://rg.ru/2024/01/16/est-li-zhizn-na-marse.html
3. Сидорова, Д. На этом стриминге можно создавать сериалы с помощью ИИ https://rb.ru/story/showrunner/
4. Как ИИ используется в съёмках фильмов и сериалов? Future Crew. https://futurecrew.ru/blog/kak-ii-ispolzuetsya-v-syomkah-filmov-i-serialov
5. Как искусственный интеллект меняет индустрию сериалов и кино. https://pikabu.ru/story/kak_iskusstvennyiy_intellekt_menyaet_industriyu_serialov_i_kino_12080474